**UOT 316.6**

# MƏKTƏBƏQƏDƏR KİMSƏSİZ VƏ VALİDEYN HİMAYƏSİNDƏN MƏHRUM OLMUŞ UŞAQLARIN SOSİALLAŞMASININ NƏZƏRİ ƏSASLARI

**Nigar KƏRİMOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 19 sentyabr 2024; çapa qəbul edilmişdir: 13 noyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 19th of September, 2024; accepted: 13th of November, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *ailə, kimsəsiz uşaqlar, sosiallaşma, sosiallaşmanın nəzəri əsası, institusional qayğı*

## Giriş

Cəmiyyətdə yaşayan fərdin qarşılıqlı əlaqə və insan münasibətləri vasitəsilə əxlaqi dəyərləri, davranış nümunələrini və yaşadığı cəmiyyətə baxış tərzini öyrənməsi və mənimsəməsi sosiallaşma prosesidir. Sosiallaşma prosesinin çərçivəsinə sosial həyat üçün zəruri olan fərdi bacarıqlar, nizam-intizamlı davranış, məqsədlər və nəhayət, fərdi davranışın başqalarının davranışı ilə inteqrasiyasını təmin edən harmoniya daxildir. Sosiallaşma prosesi müxtəlif sosial institutlar və qeyri-rəsmi təşkilatlar vasitəsilə formalaşır. Buna misal olaraq, uşaq bağçalarını, peşə məktəblərini, uşaq və gənclər təşkilatlarını və s. göstərmək olar.

Şəxsiyyətin sosial norma və dəyərlərinin formalaşmasında həlledici rol oynayan institutlardan birincisi ailədir. Ailədə başlayan sosiallaşma fərdin ömürlük ictimai münasibətlərinin və ictimai harmoniyanın əsasını təşkil edir. Bu proses uşağın təhlükəsiz, sevgi dolu və dəstəkləyici bir mühitdə böyüməsini təmin edərək, sağlam bir fərd kimi inkişafına töhfə verir.

Uşaqlıq dövrü insanın həyat təşkilində bədənin inkişafının başladığı və davam etdiyi ən vacib funksiyalarının formalaşdığı bir dövrdür. Bu, uşağın cəmiyyətdə dolğun həyat sürməsi üçün zəruri olan bacarıqların, o cümlədən uşağın tamhüquqlu üzv kimi formalaşmasına və fəaliyyət göstərməsinə imkan verən müəyyən biliklər, normalar və dəyərlər sisteminin, sosial rolların aktiv şəkildə mənimsənilməsinin ilkin mərhələsidir.

## 1. Kimsəsiz uşaqların sosiallaşmasında geriləmələr

Uşağın sosiallaşması zamanı şəxsiyyətin formalaşması, bacarıqlara, biliklərə yiyələnməsi və sosial rolların mənimsənilməsi prosesi müxtəlif səbəblərdən təhrif edilirsə və ya dayandırılırsa, nəticələrini aradan qaldırılması çətin olan problemlər yaranır. Uşağın emosional ehtiyaclarını ödəmək və sosial bacarıqlarını inkişaf etdirmək üçün sevgi dolu və anlayışlı bir ailə mühitində olması çox vacibdir. Təəssüf ki, dünyada müharibələr, epidemiyalar, təbii fəlakətlər və digər müxtəlif səbəblər nəticəsində bir çox uşaq valideyn himayəsindən məhrum qalır. Bu uşaqlar valideynsiz yaşamaq məcburiyyətində olduqları

* *doktorant, Azərbaycan Universiteti*
*e-mail*: kerimovanigar2022@gmail.com
**https://doi.org/10.30546/25194011.2024.13.5.0147**

üçün sosial, emosional, iqtisadi və akademik çətinliklərlə üzləşirlər.

Ailə uşağın inkişafı üçün vacib bir çərçivə təşkil edir. Çünki ailə əxlaqi və [4] uşaq xüsusilə məktəbəqədər dövrdə ana və atasının dominant təsiri altında olur. Onların müsbət və mənfi cəhətlərini seyr edərək mənimsəyir. Valideynləri və ailənin başqa üzvləri ilə daim ünsiyyətdə olur. Ailə insan münasibətlərinin sərgiləndiyi bir səhnə kimi düşünülə bilər. Bu səhnədə uşaq mədəni dəyərlərin uşağa bəxş etdiyi mühitlə, eləcə də uşağın inkişaf edən şəxsiyyətinin tarazlıqda olması üçün lazım olan şəfqət və etibarın verildiyi bir sığınacaqdır bütün mürəkkəb cəhətləri ilə insan münasibətlərini müşahidə edir və yaşayır. O, insani münasibətləri şərtləndirən razılaşma, kompromis, öhdəlik və əməkdaşlıq kimi bütün keyfiyyətləri öz evində qazanır.

Uşağın ailə üzvləri ilə münasibətləri onların şəxsi inkişafında və həyata baxışında böyük rol oynayır. Bu kontekstdə ailədaxili rəftar və davranışlar uşağın digər insanlarla münasibətlərini və ümumiyyətlə həyata münasibətini formalaşdırır.

İnkişaf mərhələlərində müvəffəqiyyətli olan uşaqlar yaxşı ailə münasibətlərində böyüyən fərdlərdir. Ailə daxilində uğurlu münasibətlər xoşbəxt, mehriban, depressiyadan uzaq və konstruktiv şəxsiyyətlərin formalaşmasını təmin edir [10, s. 141]. Sevgi, güvən və dəstək dolu ailə mühiti uşağın özünə inamını artırır və onun akademik, sosial və emosional sahədə uğur qazanmasına kömək edir.

Valideynlərinin sevgi və diqqətindən məhrum böyüyən uşaqlar sevgiyə böyük bir aclıq nümayiş etdirir və bu, bəzi davranış və uyğunlaşma pozğunluqlarına səbəb olur. Sevgi və diqqət uşağın emosional inkişafı üçün əsas ehtiyaclardır. Bu çatışmazlıq uşaqların özlərini dəyərsiz hiss etmələrinə, özünə inamsızlıqlarına və sosial münasibətlərdə çətinlik çəkmələrinə səbəb ola bilər. Bundan əlavə, bu uşaqlar bəzən diqqəti cəlb etmək və ya ehtiyac duyduqları qayğını əldə etmək üçün deviant və bir çox hallarda delikvent davranışlar göstərə bilərlər. Ona görə də deyə bilərik ki, ailədaxili rəftar və davranışlar uşaqların cəmiyyətdəki rollarının və münasibətlərinin müəyyən edilməsində kritik əhəmiyyətə malikdir.

Ailə həm də uşağa onun ailənin və cəmiyyətin bir üzvü olduğu şüurunu aşılayır, sosial uyğunlaşmanın əsaslarını qoyur. Yeniyetməlik dövründə gənclərin problemlərini asanlıqla həll etmələri, keçmişdəki müsbət ailə münasibətlərindən çox asılıdır. Uşaqlıqda valideynləri ilə uğurlu ünsiyyət qura bilən uşaq çətin yeniyetməlik dövründə də eyni dostluq münasibətlərini saxlayaraq şəxsi problemlərini asanlıqla həll edə bilər [10, s. 89].

## 2. Kimsəsiz və valideyn himayəsindən məhrum olan uşaqların sosiallaşması ilə bağlı konsepsiyalar

Kimsəsiz və valideyn himayəsindən məhrum olan uşaqların sosiallaşma ilə bağlı problemlərinin konseptual əsaslarda araşdırılması antik dövrdən başlamışdır. Antik dövr mütəfəkkirlərinin kimsəsiz uşaqlara, o cümlədən uşaqların tərbiyəsi prosesində ailənin və dövlətin rolu məsələlərinə dair fikirlərində ziddiyyətli məqamlar, bəzən qarşıdurmalar nəzərə çarpır. Məsələn, antik dövr mütəfəkkiri *Platon* uşağın şəxsiyyətinin formalaşmasında ailənin rolunu inkar edirdi. Onun fəlsəfəsində insan tərbiyəsi və ruhun inkişafı ümumiyyətlə dövlətin nəzarəti altında baş verən bir proses kimi qəbul edilirdi. "Dövlət" əsərində o, ideal dövlətin fərdlərin tərbiyəsini öz üzərinə götürməsini təklif edir və bu prosesdə ailələrin təsirini məhdudlaşdırmağın zəruriliyini müdafiə edirdi. Onun üçün daha geniş cəmiyyətin rifahı naminə fərdlərin tərbiyəsi və təhsili ön planda idi. Buna görə də Platonun fikrincə, ailə fərdin xarakterinin formalaşmasında birbaşa rol oynamırdı [19, s.355].

Bu məsələdə Aristotellə Platonun fikirləri arasında fərq var. Platondan fərqli olaraq Aristotel fərdin şəxsiyyətinin formalaşmasında ailənin rolunu daha mühüm qiymətləndirir, ailəyə cəmiyyətin insanın həyatında aparıcı təsiri olan başlıca təsisatlarından biri kimi

yanaşırdı. Bu barədə onun “Nikomakhos'a Etik” (Nikamorun etikası) adlı əsərində rast gəlirik. Aristotel sosiallaşma və şəxsiyyətin formalaşmasında ailənin prioritet roluna inanır. Mütəfəkkir sosiallığı ilk növbədə ailə ilə əlaqələndirir: “*tarixən cəmiyyətin inkişafı onun təliminə görə ailədən cəmiyyətə, oradan isə dövlətə keçir*”. Deməli, Aristotelə görə, ailə şəxsiyyətin fəzilət və xarakterinin formalaşmasında əsas rol oynayır və cəmiyyətin əsas vahidi kimi böyük əhəmiyyət kəsb edir [11, s. 411-412].

Aristotelin uşaqlıq anlayışının və obrazının təkamülünün, insanın, o cümlədən uşalıq dövrünün diferensiallaşdırılmasının cəmiyyətin inkişafı nəticəsində yaranan sosial institutların təsiri altında meydana çıxması fikrini ehtiva edən konsepsiya və nəzəriyyələr yeni dövrdə yeni istiqamətdə inkişaf etməyə başlamışdır.

XVII əsrdə ailəyə sosial təsisat kimi yanaşılan araşdırmalar aparılmışdır. XVIII əsrin sonlarında uşaqlıq müstəqil, sosial dəyər kimi tanınmağa başladı. Bu dönəm ərzində, uşaqların hüquqları və onların sosial dəyərləri ilə bağlı fikirlər də dəyişdi. Avropa və Amerika kimi ən müasir cəmiyyətlərdə, uşaqların təhsil, sağlamlıq və rifahı üçün qayğı göstərilməyə başlandı. Buna görə də uşaqların mənəvi, fərdi və psixoloji inkişafı daha çox diqqət mərkəzində oldu. Əvvəlki dövrlərdə olduğundan fərqli olaraq, XVIII əsrdə artıq uşaqların hər hansı bir işgüzarlıq dəyərinə sahib olması ideyası qəbul edilmirdi, onların ictimai dəyəri və inkişafı üçün müvafiq mühit təmin edilməsinə daha çox diqqət yetirildi. Mühüm olan bir başqa məqam isə uşaqlara insan hüquqları perspektivində dəyər verilməsi idi. Onların hüquqları və qorunması məsələsi daha çox diqqət mərkəzində idi. Bu, uşaqların istismar və zorakılıqdan qorunması, təhsil və sağlamlıq imkanlarının təmin edilməsi, onların fərdiyyətlərinin və inkişaf potensiallarının açılması ilə bağlı daha geniş məsələlər dairəsini açdı. Bütün bunlar, uşaqların müstəqil, sosial dəyər kimi tanınması və onların ictimaiyyətdə daha aktiv rolunun daha yaxşı anlaşılması demək idi. Bu dönəm, uşaqların yalnız ailələrin mülkiyyəti kimi deyil, ayrıca cəmiyyətin də əhəmiyyətli bir hissəsi kimi dəyərləndirilməsinin başlandığı bir dövr idi.

Qeyd edilən dövrdə Giambattista Viko (1668-1744) “Ailə sosial institutdur” ifadəsi ilk dəfə ictimai elmlərdə italyan filosofu və tarixçisi, müasir sosiologiyanın sələfi işlətmişdir. Nitsşenin qeyd etdiyi kimi, ana məhəbbəti və qayğısını və ya onu əvəz edən emosional bağı tapa bilməyən uşaq dünyaya bir “giriş qapısı” tapa bilməz. Bu baxış uşağın dünya ilə sağlam şəkildə əlaqə qurması üçün zəruri olan əsas emosional bağın vacibliyinə işarə edir. Giambattista Viko ya qədər hüquqda “qurum” termini işlədilmiş və yalnız sosiologiyanın bir elm kimi meydana çıxması ilə bu anlayış sosial hadisə və proseslərin institusional təhlili üçün istifadə olunmağa başlamışdır.

Ailə mühitinin və institutunun insanın həyatındakı Nitsşenin qeyd etdiyi kimi, ana məhəbbəti və qayğısını və ya onu əvəz edən emosional bağı tapa bilməyən uşaq dünyaya bir “giriş qapısı” tapa bilməz. Bu baxış uşağın dünya ilə sağlam şəkildə əlaqə qurması üçün zəruri olan əsas emosional bağın vacibliyinə işarə edir.

İnstitusional yanaşma sosiologiyada Avqust Komte və Herbert Spenser tərəfindən də geniş araşdırılmışdır. Uşağın sosiallaşmasında ailənin prinsipial mühüm rolu sosiologiyanın banisi Ogüst Kontun əsərlərində də görünür. O iddia edirdi ki, fərdin (uşağın, kimsəsizlərin) uğurlu ictimailəşməsi üçün uşaq ailədə və ya onu əvəz edən daimi qəyyumların yanında böyüməli, insanlığa xidmət edən zəruri keyfiyyətlərə yiyələnməlidir. Kontun fikrincə, ailə sosial institutdur. Ailənin əsas məqsədi gənc nəslin tərbiyəsinə xidmət etməkdir. Ailədə insan təbii eqoizmə qalib gələrək təkcə özü üçün deyil, başqaları üçün də yaşamağı öyrənir. Konta görə, fərd özünün sosial keyfiyyətlərini ilk növbədə ailədə qazanır. Cəmiyyətin ən sabit vahidi olan bu sosial institut ən mühüm funksiyaları yerinə yetirir: mədəni irsin qorunması, sosiallaşma, müxtəlif nəsillərin istəklərinin əlaqələndirilməsi, ümumilikdə ənənə və innovasiya arasında tarazlığın qorunması [14, s. 397].

İngilis filosofu və sosioloqu Herbert Spenserin şərhinə görə isə, “sosial institutlar

təbiətcə asosial olan insanın birgə kollektiv fəaliyyətə qadir olan sosial varlığa çevrilməsini təmin edir. Sosiallaşma prosesi məişət, ritual, peşə, sənaye, siyasət kimi sosial institutlarla əlaqələndirilir. Onlar insanların birgə fəaliyyətinin özünü təşkili sistemini həyata keçirirlər. "Ev" institutları arasında ən mühümü insanların fərdlərarası münasibətlərlə bağlı müxtəlif həyat formalarında iştirakını göstərən ailə və nikahdır" [21, s. 164].

"Sosial institut" termininin elmi leksikona daxil edilməsi K.Marksın əsərləri ilə bağlıdır. K.Marks rus yazıçısı Pavel Vasilyeviç Annenkova yazdığı 28 dekabr 1846-cı il tarixli məktubunda qeyd edirdi ki, "Sosial institutlar tarixi inkişafın məhsuludur" [17, s. 406]. Marksın əsərləri sosial elmlərdə institusional təhlilin əhəmiyyətini vurğulamaqla sosial institutların öyrənilməsinə töhfə verdi. Onun diqqət yetirdiyi sinfi münasibətlər və iqtisadi strukturlar sosial strukturları başa düşmək üçün fundamental çərçivə təmin edir. Lakin daha əvvəl o, "Hegelin hüquq fəlsəfəsinin tənqidinə dair" əsərində qeyd edir ki, onun üçün "ailə, dövlət və vətəndaş cəmiyyəti kimi sosial institutlar boş abstraksiyalar deyil, insan varlığının sosial formalarıdır" [17, s. 263].

XIX-XX əsrlərdə sosial adaptasiya ilə bağlı araşdırmalar sübut etdi ki, ailənin uşağa bilavasitə təsiri son dərəcə vacib məqamdır. Ailə mühiti uşaqların emosional, koqnitiv və sosial inkişafına təsir edərək, onların daha geniş cəmiyyətlə qarşılıqlı əlaqəsinin əsasını qoyur. Ailə sevgisindən və diqqətindən məhrum olan uşaqlarda şəxsiyyətin inkişafında pozğunluqların olması, cəmiyyətə uyğunlaşa bilməməsi, bəzi inkişaf qüsurlarının olması danılmaz bir həqiqətdir. Çünki sağlam fərdlər yetişdirmək üçün sağlam ailə lazımdır.

Sosiologiyanın qurucu simalarından biri hesab edilən Emile Durkheim ailənin cəmiyyətin əsas vahidi olduğunu və sosiallaşma prosesinin ilk və ən mühüm mərhələsinin ailədə baş verdiyini bildirir. Onun fikrincə, ailə üzvləri arasında qurulan bağlar fərdin cəmiyyətə uyğunlaşmasında, sosial normaların öyrənilməsində həlledici rol oynayır.

Müasir nəzəri sosiologiyanın banilərindən olan amerikalı sosioloq T.Parsonsa görə, cəmiyyətlər mürəkkəb sosial sistemlərdir və bu sistemlər spesifik funksiyaları olan müxtəlif sosial institutlar tərəfindən dəstəklənir. Funksionalizm yanaşmasına görə, cəmiyyətin hər bir hissəsi bir-biri ilə inteqrasiya olunmalı və tarazlıqda işləməlidir. Parsons funksionalizm nəzəriyyəsini mürəkkəb analitik çərçivədə inkişaf etdirdi və sosial dəyişikliyin və uyğunlaşmanın necə baş verdiyini izah etməyə çalışdı. Sosial fəaliyyət nəzəriyyəsi və struktur funksionalizmin inkişafına verdiyi töhfələrə görə tanınan Talkott Parsons sosiallaşma prosesində ailənin rolunu önə çəkməklə bu amilin əhəmiyyətini vurğulayır. Onun fikrincə, ailə fərdlərə sosial rolları öyrətmək və onları bu rollara hazırlamaq funksiyasını yerinə yetirir. Ailə həm də emosional dəstək verməklə fərdin psixoloji sağlamlığını qoruyur.

Parsonsa görə, uşaqlar cəmiyyət tərəfindən qəbul edilmiş davranışları ailədə öyrənərək sosiallaşır və cəmiyyətin bir hissəsi olurlar. Böyüklər uşaqlara cəmiyyətin dəyərlərini, normalarını və davranışlarını öyrətmək üçün məsuliyyət daşıyırlar və uşaqları bu dəyərləri mənimsəməyə təşviq etməlidirlər. T.Parsonsun struktur funksionallığı çərçivəsində uşaqlar böyüklər tərəfindən "sosiallaşma obyekti", onların sosial etirazı isə deviant davranış hesab edilir. Parsonsun ən mühüm əsərlərindən biri "The Social System"dir. Bu kitabda o, cəmiyyətlərin fəaliyyətini və strukturlarını təhlil etmiş və sosial münasibətlərin dinamikasını başa düşmək üçün hərtərəfli model təklif etmişdir [7, s. 575].

Avstriyalı nevroloq və psixoanalizin banisi Ziqmund Freydin şüursuz ağıl, müdafiə mexanizmləri və psixoseksual inkişafla bağlı nəzəriyyələri psixologiya, psixiatriya və müxtəlif digər sahələrə dərin təsir göstərmişdir. Freydin nəzəriyyələri həm təsirli, həm də mübahisəli olmuşdur. Freydin bir çox fikirləri tənqid olunsa da, onun işi psixologiya, psixiatriya, ədəbiyyat, incəsənət və mədəniyyətşünaslıq sahələrinə dərindən təsir edib. Freydin şüursuz zehni vurğulaması və erkən uşaqlıq təcrübələrinin əhəmiyyəti insan davranışını və psixi prosesləri başa düşmək üçün əsas anlayışlar olaraq qalır. O hesab edir ki, ailə fərdin şəxsiyyətinin inkişafında mərkəzi rol oynayır. Xüsusilə erkən uşaqlıq dövründə

valideynlər və uşaqlar arasındakı münasibətlər fərdin şüursuz motivasiyalarını və davranışlarını formalaşdırır.

Alman əsilli amerikan psixoloq və psixoanalitiki Erik Erikson insanın psixososial inkişafı ilə bağlı nəzəriyyəsi ilə tanınır. Eriksonun bu nəzəriyyəsi psixologiya, təhsil və insan inkişafına əhəmiyyətli dərəcədə təsir göstərmişdir. Onun inkişafın ömürlük xarakterini və sosial - mədəni amillərin əhəmiyyətini vurğulaması sonrakı bir çox nəzəriyyə və təcrübələrə təsir etmişdir. Eriksonun işi şəxsiyyətin formalaşması və həyatın müxtəlif mərhələlərində üzləşdiyi çətinliklərin dərk edilməsində əsas rol oynayır. O, psixososial inkişaf nəzəriyyəsində fərdin sosiallaşma prosesində ailənin əhəmiyyətini vurğulayır: "İnkişafın hər bir mərhələsində fərdlər ailələri ilə qarşılıqlı əlaqədə həlledici vəzifələri yerinə yetirirlər və bu vəzifələrin uğurla yerinə yetirilməsi sağlam şəxsiyyətin formalaşması üçün mühüm əhəmiyyət kəsb edir".

Spitz, Bovlbi, Aubri kimi elm adamları uşaqlar üzərində apardıqları araşdırmalarda ana sevgisindən məhrum böyüyən uşaqların psixi sağlamlığının gələcəkdə düzəlməz dərəcədə zədələndiyini bildirmişlər.

Psixiatriya və psixoanaliz sahəsinə mühüm töhfələr vermiş Rene Spitz uşaq evlərində böyüyən uşaqların inkişafını araşdırdı və müəyyən etmişdir ki, ana sevgisinin olmaması uşaqlara böyük təsir göstərir. Xüsusilə, o, "anaklitik depressiya" terminini işlətmiş və ana sevgisindən məhrum olan körpələrin fiziki və emosional inkişafında ciddi gerilələmələr yaşadıqlarını bildirmişdir. Spitz bu tapıntıları "hospitalizm" anlayışı ilə ifadə etmişdir.

Sosiallaşma prosesində ailənin rolu haqqında müxtəlif sahələrin alimləri dəyərli fikirlər irəli sürmüşlər: "Bağlılıq nəzəriyyəsi" ilə tanınan John Bowlby uşaqların emosional və sosial inkişafı üçün onların baxıcıları ilə etibarlı bir əlaqə yaratmasının vacib olduğunu vurğulayır. O, qeyd edir ki, valideynlər övladları ilə təhlükəsiz və sevgi dolu münasibət qurmalı, onların emosional ehtiyaclarını ödəməli və onlarda güvən hissini inkişaf etdirməyə kömək etməlidirlər [2, s. 13].

XX əsrin ən nüfuzlu pediatrı və uşaq tərbiyəsi mütəxəssislərindən biri olan Benjamin Spok da valideynlərin öz instinktlərinə güvənmələrinin və uşaqlarını sevgi ilə böyütmələrinin vacibliyini vurğulayır. Onun 1946-cı ildə yazdığı "Common Sense Book of Baby and Child Care" (Körpə və uşaq baxımı haqqında ümumi düşüncə kitabı) adlı məşhur kitabı valideynlik haqqında müasir düşüncələrin inkişafına əhəmiyyətli töhfə vermişdir. Spokun uşaq tərbiyəsi ilə bağlı yanaşmaları, o dövrdə geniş yayılmış sərt və avtoritar metodlardan fərqli olaraq, uşağın fərdiliyinə hörmət edən daha çevik, sevgi dolu yanaşmanı müdafiə edir. Spock nizam-intizamın vacib olduğu ilə razılaşır, lakin bunun sevgi və anlayışla müşayiət edilməli olduğunu bildirir. O, uşaqların müstəqilliyini və özünə inamını inkişaf etdirmələrinin vacibliyini xüsusilə vurğulayır.

Simvolik interaksionizmin banilərindən biri hesab olunan George Herbert Meadın şəxsiyyətin və davranışın formalaşmasında sosial qarşılıqlı əlaqənin əhəmiyyətini vurğulaması insan cəmiyyətinin dərk edilməsində əsas konsepsiya olaraq qalır. Mead sosiallaşma prosesinin ailə daxilində başladığını və bu prosesin fərdin mənlik anlayışının inkişafı üçün əsas olduğunu bildirir. Onun fikrincə, fərdlər sosial qarşılıqlı əlaqələri ailələri vasitəsilə öyrənir və bu qarşılıqlı əlaqələr vasitəsilə sosial kimliklərini formalaşdırırlar.

İngilis sosioloqlarından biri olan Anthony Giddens ailəni – "birbaşa ailə münasibətləri ilə bağlı olan, yetkin üzvləri uşaqlara qulluq etmək məsuliyyətini öz üzərinə götürən insanlar qrupu" adlandırır [13, s. 366]. Ailə uşaq və yeniyetmələrin tərbiyəsi, şəxsiyyətin fiziki və mənəvi inkişafı üçün məsuliyyət daşıyır. Beləliklə, ailə cəmiyyətin həyatına təsir göstərir, onun xüsusiyyətlərini, dinamikasını və ziddiyyətlərini əks etdirir. Ailəyə sosial əhəmiyyətli funksiyalar həvalə edildiyi üçün nikah və valideynlik sosial sanksiya alır, mənəvi-hüquqi status qazanır, yəni ailə sosial institut kimi fəaliyyət göstərir [20, s. 664].

XX əsrin ortalarında fransız demoqrafı Philippe Aries belə bir mövqe ortaya qoydu ki, uşaqlıq insan inkişafının sadəcə təbii universal mərhələsi deyil, müxtəlif dövrlərdə fərqli sosial və mədəni məzmuna malik kateqoriyadır.

P.Berqer və T.Luckmanın sosiallaşma konsepsiyası böyük elmi əhəmiyyət kəsb edir [12, s. 219]. Tədqiqatçıların fikrincə, insan cəmiyyətin üzvü kimi doğulmur, ancaq cəmiyyətə inteqrasiya potensialına malikdir. Sosiallaşma həmişə xarakterik sosial quruluş kontekstində baş verir. İki sosial qrupun - "böyüklər" və "uşaqlar"ın qarşılıqlı əlaqəsi ilə sosiallaşma prosesi baş verir ki, bu da uşaqlara onun üzvü olmaq və sosial qrupun statusunu qorumaq üçün sosial reallığı mənimsəməyə və öyrətməyə imkan verir. Tədqiqatçılar sosiallaşmanın iki mərhələsini – ibtidai və ikinci mərhələləri müəyyən etdilər.

"İlkin sosiallaşma" termini insanın bilavasitə, ətraf mühitində fəaliyyətin təşkili ilə əlaqələndirilir. Sosiallaşmanın bu mərhələsi uşaq üçün çox vacibdir, çünki cəmiyyətə inteqrasiya prosesinin qalan hissəsi üçün əsasdır. Uşağın cəmiyyət, onun dəyərləri və normaları haqqında təsəvvürlər aldığı ailə ilkin sosiallaşmada üstünlük təşkil edir. Sosiallaşmanın subyektləri valideynlər, eləcə də yaxın və uzaq qohumlardır: onlar uşaqlar üçün emosional bağlılıq obyektləridir, onsuz öyrənmə prosesi çətindir. İlkin sosiallaşmanın spesifik xüsusiyyətlərini müəyyən edən amillər kompleksi sosial rolların, davranış nümunələrinin, sosial norma və dəyərlərin öyrədilməsi zamanı maddi parametrləri də müəyyən edir.

P.Berqer və T.Luckmanın fikrincə, sosiallaşmanın növü və onun effektivliyi sosial struktur şəraitinə və nəticələrinə malikdir. Məhz uşaqlıqda obyektiv və subyektiv münasibətlər uyğunlaşdırılır. "Uğurlu sosiallaşma" obyektiv və subyektiv reallıq arasında yüksək səviyyəli simmetriyanın yaradılması ilə xarakterizə olunur. Əksinə, "uğursuz sosiallaşma" "asimmetriya" və sosial şəkildə qurulmuş reallığın qavranılmasında ziddiyyətlərin görünüşü ilə xarakterizə olunur.

Sosiallaşma anlayışı çox önəmli bir mövzudur. İki mühüm sosioloq olan Peter Berger və Tomas Lukman "The Social Construction of Reality" (Reallığın Sosial Quruluşu) adlı əsərlərində sosiallaşmadan ətraflı bəhs etmişlər [12, s. 240].

Sosiallaşmanın interaksionist konsepsiyalar şəxsiyyətin formalaşmasında ilkin mühitin prioritetini də müəyyən edir. Belə ki, amerikalı filosof, sosioloq, simvolik interaksionizmin banilərindən biri C.Mid insan "mən"inin formalaşması prosesini fərdin daxilində baş verən sosial proses kimi şərh edir. "Əhəmiyyətli başqaları" uşağın bilavasitə sosial dairəsini təmsil edir; bu mühit sosial münasibətləri əsas və uşağın özü haqqında təsəvvürlərinin formalaşmasında ən təsirli olanları birləşdirir. Sonra uşaq kəşf edir ki, onun oynadığı rollar təkcə onun yaxın ətrafının gözləntiləri ilə deyil, həm də daha geniş insan cəmiyyətinin obyektiv tələbləri ilə bağlıdır. C.Mid başqaları haqqında mücərrəd ideyanın formalaşmasını "başqasının ümumiləşmiş" kəşfi adlandırır. Ümumiləşmiş başqası formasında sosial proses fərdin şüurunun strukturuna müəyyənedici amil kimi inteqrasiya olunur və məhz bu mərhələdə özünü identifikasiya potensialı həyata keçirilir və öz şəxsiyyətinin ümumi obrazı formalaşır [18, s. 429].

Digər amerikalı sosial psixoloq, Miçiqan Universitetinin professoru C.Coley də öz nəzəriyyəsini eyni istiqamətdə inkişaf etdirir. O, daha çox "looking-glass self" (güzgü effekti) konsepsiyası ilə tanınır.

Coleyə görə, "aynalı mənlik" konsepsiyası insanların özlərini müşahidə etmələri və başqalarının onlara qarşı reaksiyalarını şərh etmələri, insanın şəxsiyyətinin formalaşmasına təsir göstərir. İnsan başqalarının onun haqqında nə düşündüklərini dərk etdikcə, öz mənlik anlayışını formalaşdırır və bu qavrayışlar əsasında davranışını tənzimləyir. Yəni insanlar özlərini başqalarının gözü ilə görürlər və bu qavrayışlar özünü müəyyən etməkdə, cəmiyyətdə iştirak etməkdə mühüm rol oynayır.

Coley bu konsepsiyanı "Human Nature and the Social Order" (İnsan təbiəti və sosial

nizam) əsərində inkişaf etdirdi [3, s. 413]. Bu əsərində o, sosial psixologiya ilə sosiologiya arasındakı əlaqəni vurğulamış və insanların sosial mühitlərinin necə formalaşdığını və təsirləndiyini araşdırmışdır.

Onun fikrinə görə, sosiallaşma yalnız ilkin qrup daxilində şəxsiyyətlərarası ünsiyyətdə həyata keçirilir: "İnsan təbiəti bütün cəmiyyətlərdə kifayət qədər oxşar olan sadə, bilavasitə qruplarda (ailə, məhəllə qrupları və oyun meydançaları) inkişaf edir və ifadə olunur. Uşağın əsas mühiti, xüsusən də ailə şəxsiyyətin formalaşmasına böyük təsir göstərir və eyni zamanda uğurlu sosiallaşmanın ilkin şərtidir [15, s.334].

Effektiv sosiallaşma, fərdin müxtəlif növ icmalara uğurlu inteqrasiyası həm xarici, həm də daxili amillərlə, xüsusən də əhəmiyyətli sosial mühitlə sabit birliyin subyektiv təcrübəsi ilə tənzimlənir. Hər bir fərd müəyyən icmaların bir hissəsi olmaqla öz dəyərlərini və əsas ideoloji mövqelərini bölüşür.

**Nəticə**

Beləliklə, sosiallaşma uşaqlıq dövrünün xarakterik atributu olan və uşağın sosial mühitə daxil olmasını, uyğunlaşmasını təmin edən sosial prosesdir. Bu prosesin inkişafı ilə normalar və dəyərlər formalaşır, "böyüklər dünyası" rolları mənimsənilir və müxtəlif səviyyəli icmalarda ümumilikdə sosial status qazanılır. Sosiallaşmanın uğur dərəcəsi və məzmunu sosial nəticələrə malikdir. Uğurlu sosiallaşma yalnız ailədə mümkündür – validеynlərlə birbaşa qarşılıqlı əlaqə, "əhəmiyyətli başqaları" ilə ünsiyyət. Uğurlu sosiallaşmanın nəticəsi cəmiyyətin mövcudluğunun bir hissəsi kimi öz dünyasını ahəngdarlaşdırmaq qabiliyyətinə malik olan insandır. Uğursuz, "asimmetrik" sosiallaşmanın nəticəsi sosial reallığı təhrif edən, cəmiyyətə uyğunlaşa və inteqrasiya edə bilməyən bir insandır. Eyni zamanda, uşağın asimmetrik sosiallaşmasının səbəblərindən biri sosial şəxsiyyət mənbəyi kimi ailənin olmamasıdır, çünki gələcək şəxsiyyətin formalaşmasında ilkin sosiallaşma və ilkin mühit müəyyənedici rol oynayır.

## ƏDƏBİYYAT


1. Basri A. İslâm ve Eğitim. Salih Evlat Yetiştirmek. 2009, Temmuz. (http://www.ozlenenrehber.com.tr/tr/dergi/76/islam-ve-egitim-salih-evlat-yetistirmek-1257.html), 12 İyun 2024 tarihinde müraciət edilib (PDF deyil).
2. Eryorulmaz A. Kurumsal Okulöncesi Eğitimde Ailenin Rolü. İstanbul: Ya-Pa Okulöncesi Eğitimi Yaygınlaştırma Semineri, 1993, s. 132-145.
3. Esmeray K., A. Çocukların Bilgi Arama Davranışlarının Analizi Ve Çocuklara Yönelik Elektronik Bilgi Kaynakları İçeren Bir Veritabanı Tasarım. Doktora Tezi, İstanbul Üniversitesi / Sosyal Bilimler Enstitüsü/ 2013, 186 s.
4. Muhammed Fuâd Abdülbâkī. Teysîrü'l-menfaʿa bi-kitâbey Miftâḥi künûzi's-sünne ve'l-Muʿcemi'l-müfehres li-elfâẓi'l-ḥadîs̱i'n-nebevî. Kahire 1353-1354, 1409/1988; Beyrut 1404).
5. Yavuzer H. Ana-baba ve çocuk. İstanbul: Remzi Kitabevi,1999, 20 s.
6. Bowlby J. Maternal care and mental health. Geneva: World Health Organization Monograph Serial No.2, 1952, 189 p.
7. Charles C. Human Nature and the Social Order. New York: Chaeles Sceibnee's Sons, 1902, 413 p.
8. Parsons T. The Social System. London:  This Edition Published in the Taylor & Francis e-Library, 2005, 448 pp.
9. Peter L. Berger and Thomas Luckmann The Social Construction of Reality: A Treatise in the Sociology of Knowledge. United States, Anchor Books, 1966, 240 pp.
10. Philippe Aries L'enfant et la vie familiale sous l'Ancien Régime. Paris: Livres d'Histoire & de Géographie, 1960, 424 p.

11. Аристотель. Собрание сочинений в 4-х томах. Москва: Мысль, 1983, т. 4, 830 с.
12. Бергер П., Лукман Т. Социальное конструирование реальности/перевод с английского Е. Руткевич. Москва: «Медиум», 1995, 219 с.
13. Гавров С. Н. Историческое изменение институтов семьи и брака. Москва, МГУДТ, 2009, 366 с.
14. История социологии в Западной Европе и США. 1999, 397 с.
15. Кули Ч. Первичные группы // Американская социологическая мысль: тексты/под редакцией В. И. Добренькова. Москва, 1994, 334 с.
16. Маркс К., Энгельс Ф. К критике гегелевской философии права // Собр. соч., изд. 2, т. 1, М.: Политиздат, 1957, 689 с.
17. Маркс К. П. В. Анненкову (28 декабря 1846). Маркс К., Энгельс Ф. Соч. Изд. 2-е. т. 27. М.: Государственное издательство Политической литературы. 1962, 746 с.
18. Мид М. Культура и мир детства: избранные произведения / Пер. с англ. и коммент. Ю.А. Алексеева; Отв. ред. И.С. Кон. Москва, Наука, 1988, 429 с.
19. Платон. Собрание сочинений. Москва: Мысль,Т.3, 1971, 686 с.
20. Российская социологическая энциклопедия. М.: Издательская группа НОРМА – ИНФРА, 1998, 664 с.
21. Спенсер Г. Основание социологии. СПб., 1876-1877 // Тесты по истории социологии 19-20 вв.: хрестоматия. Москва: Институт экспериментальной социологии, 1994, 164 с.

***Резюме***

***Нигяр Каримова***

***Теоретические основы социализации дошкольников, лишенных родительской защиты***

Детство – это особый этап жизни человека. Окруженный родительской заботой и вниманием в семье, ребенок развивает лояльность, сочувствие, знания и навыки ответственности за себя и других. Ощущение эмоционального благополучия – необходимый фактор, определяющий дальнейшую жизнь ребенка, физическое здоровье, характер его взаимодействия с окружающими людьми, личный успех. В процессе социализации ребенка, если процесс формирования личности, приобретения навыков, знаний и освоения социальных ролей по разным причинам искажается или останавливается, возникают проблемы, последствия которых трудно устранить. Любящая и понимающая семейная обстановка необходима ребенку для удовлетворения его эмоциональных потребностей и развития социальных навыков. К сожалению, в результате войн, эпидемий, стихийных бедствий и других различных причин многие дети остаются без родительской опеки. Эти дети сталкиваются с социальными, эмоциональными, экономическими и академическими трудностями, поскольку им приходится жить без родителей.

Проведенные исследования доказывают, что развитие ребенка вне семьи является основой формирования различных особенностей характера и поведения.

Социализация детей-сирот дошкольного возраста и детей, лишенных родительской опеки, является важным вопросом в области детского развития и психологии. Процесс социализации этих детей очень важен для развития их эмоциональных, познавательных и социальных навыков. Теоретическая основа социализации базируется на нескольких основных теориях и подходах: «Теория привязанности» Джона Боулби, «Теория социального обучения» Альберта Бандуры, «Теория экологических систем» Ури Бронфенбреннера, «Теория психосоциального развития» Эрика Эриксона. Эти теоретические основы помогают разрабатывать различные мероприятия и программы для поддержки социализации детей-сирот и обездоленных детей. Такие программы могут помочь детям развить эмоциональные и социальные навыки, сформировать надежную привязанность и развить здоровые социальные отношения.

**Ключевые слова:** *семья, дети-сироты, социализация, теоретические основы социализации, институциональный уход*

***Summary***

***Nigar Karimova***

***Theoretıcal Foundatıons of Socıalızatıon of Preschool Chıldren Deprived of Parental Protectıon***

Childhood is a special stage of a person's life. Surrounded by parental care and attention in the family, the child develops loyalty, empathy, knowledge and skills about being responsible for himself and others. The feeling of emotional well-being is a necessary factor that determines the child's future life, physical health, the nature of his interactions with the people around him, and personal success. During the socialization of the child, if the process of personality formation, acquisition of skills, knowledge and mastering of social roles is distorted or stopped for various reasons, problems arise, the consequences of which are difficult to eliminate. A loving and understanding family environment is essential for a child to meet his emotional needs and develop his social skills. Unfortunately, as a result of wars, epidemics, natural disasters and other various reasons, many children are left without parental care. These children face social, emotional, economic and academic difficulties as they have to live without their parents.

The conducted studies prove that the development of a child outside the family is the basis for the formation of different character and behavioral personality traits.

Socialization of preschool orphans and children deprived of parental care is an important issue in the field of child development and psychology. The socialization process of these children is very important for the development of their emotional, cognitive and social skills. The theoretical basis of socialization is based on several main theories and approaches: John Bowlby's "Attachment Theory", Albert Bandura's "Social Learning Theory", Urie Bronfenbrenner's "Ecological Systems Theory", Erik Erikson's "Psychosocial Development Theory". These theoretical foundations help design various interventions and programs to support the socialization of orphaned and deprived children. Such programs can help children develop emotional and social skills, form secure attachments, and develop healthy social relationships.

**Keywords:** *family, orphans, socialization, theoretical foundations of socialization, institutional care.*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.